| Təhsil səviyyəsi | Fənn | Fənnin məqsədi | Semestr | Tədris | Kurs | Tədris | İxtisas | ATM |
|---|---|---|---|---|---|---|---|---|
| Magistratura | Ali təhsildə maliyyələşmə | Fənn ali təhsilin maliyyələşdirilməsində mövcud siyasət məsələlərini öyrənmək və təhlil etmək imkanı verir. Ali təhsildə maliyyələşmə, daxili və xarici maraqlı tərəflərin maliyyələşməyə təsirləri, Azərbaycanda ali təhsil sisteminin maliyyələşməsi məsələləri, iqtisadi, siyasi və sosial faktorların maliyyələşməyə təsirləri fənnin əsas məzmununu təşkil edir. | payız | 45 | II | Azərbaycan | Menecment (Ali təhsilin təşkili və idarə olunması) | ADPU |
| Magistratura | Ali təhsil müəssisələrində təşkilati davranış | Təşkilati davranışın ümumi çərçivəsi, ali təhsil müəssisələrində təşkilati davranış, təhsil müəssisələrində müsbət və mənfi davranışlar, təşkilati davranışa təsir edən fərdi, qrup və təşkilatla əlaqəli faktorların müəyyənləşdirilməsi və onların fəaliyyətə təsirləri kimi məsələlər fənnin məzmununa daxildir. | payız | 45 | II | Azərbaycan | Menecment (Ali təhsilin təşkili və idarə olunması) | ADPU |
| Magistratura | Ali təhsildə insan resurslarının idarəolunması | Fənnin məzmunu ali təhsil müəssisələrində insan resursları konsepsiyasını və insan resurslarının idarəolunması proseslərini əhatə edir. Həmçinin, insan resurslarında tələb-təklif ilə bağlı hesablamalar, iş dizaynı, iş analizi, işçi seçimi və işə qəbul, | payız | 45 | II | Azərbaycan | Menecment (Ali təhsilin təşkili və idarə olunması) | ADPU |

| Təhsil səviyyəsi | Fənn | Fənnin məqsədi | Semestr | Tədris | Kurs | Tədris | İxtisas | ATM |
|---|---|---|---|---|---|---|---|---|
| | | performansın idarəedilməsi və əməyin mühafizəsi və təhlükəsizliyi kimi məsələləri fənnin məzmununu təşkil edir. Fənn ali təhsil müəssisələrində insan resurslarının idarəolunmasının strateji töhfələrinin başa düşülməsini hədəfləyir | | | | | | |
| Magistratura | Ali təhsildə strateji planlaşdırma | Fənnin məzmununa ali təhsil müəssisələri üçün strateji planlaşdırmanın əhəmiyyəti, strateji planlaşdırma prosesi, strateji planın tərkib hissələri (missiya, vizyon, dəyərlər və s.), ali təhsil müəssisələrinin profilinə uyğun olaraq maraqlı tərəflərinin müəyyənləşdirilməsinin metodologiyası, mövcud vəziyyətin təhlili (SWOT/GZİT və s.), ali təhsil müəssisələri üçün strateji inkişaf planının hazırlanma metodikası və s. kimi məsələlər daxildir. | payız | 45 | II | Azərbaycan | Menecment (Ali təhsilin təşkili və idarə olunması) | ADPU |

| Təhsil səviyyəsi | Fənn | Fənnin məqsədi | Semestr | Tədris | Kurs | Tədris | İxtisas | ATM |
|---|---|---|---|---|---|---|---|---|
| Magistratura | Ali təhsilin marketinqi | Fənn ali təhsilin marketinq konseptini, metodlarını, brend və rəqəmsal marketinq prinsiplərini, bazar təhlili və strateji marketinq planının hazırlanması və həyata keçirilməsi kimi məsələlərin nəzəri və praktiki tərəflərini əhatə edir. Fənn çərçivəsində əhatə olunacaq mövzular həmçinin təşkilatın məqsədlərinə və növünə əsasən müxtəlif auditoriya seqmentlərinin müəyyən edilməsini, ətraflı bazar təhlili hazırlanması və ölçülə bilən marketinq məqsədləri və strategiyalarının hazırlanması, marketinq üçün texnologiyalardan və müasir sosial şəbəkələrdən istifadə edilməsi və digər müasir marketinq metodlarının öyrənilməsini əhatə edir. Marketinqdə nəzəri və praktiki məsələlərin qoyuluşu, onlardan tədqiqat məsələsinin çıxarılması və bu sahədə tədqiqat aparmaq kimi məsələlər də fənnin əhatə dairəsindədir. | payız | 45 | II | Azərbaycan | Menecment (Ali təhsilin təşkili və idarə olunması) | ADPU |

| Təhsil səviyyəsi | Fənn | Fənnin məqsədi | Semestr | Tədris | Kurs | Tədris | İxtisas | ATM |
|---|---|---|---|---|---|---|---|---|
| Magistratura | Beynəlxalq qiymətləndirmə tədqiqatları | Beynəlxalq qiymətləndirmə tədqiqatlarının (TİMSS, PİSA, PİRLS, ICILS, TALIS) həyata keçirilmə məqsədləri; beynəlxalq qiymətləndirmə çərçivələri; əhatə etdiyi məzmun sahələri; tətbiq mərhələləri, nəticələrinin təqdimat formaları və şərhi üsulları; Azərbaycanın iştirak etdiyi beynəlxalq qiymətləndirmələr və ən son dövrün nəticələri. | payız | 60 | II | Azərbaycan | Təhsildə qiymətləndirmə və monitorinq | ADPU |
| Magistratura | Böyük verilənlərin idarəedilməsi | | payız | 45 | II | İngilis | Süni intellekt | ADNSU |
| Magistratura | Əşyaların İnternetinin (IoT) təklükəsizliyi | | payız | 45 | II | Azərbaycan | İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi | SDU |
| Magistratura | Etik hakinq metodları | | payız | 45 | II | Azərbaycan | İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi | SDU |
| Magistratura | Etik hakinq metodları | | payız | 60 | II | Azərbaycan | Kibertəhlükəsizlik | AzTU |
| Magistratura | İqtisadi proseslərin optimallaşdırılması və idarə olunması | | payız | 45 | II | Azərbaycan | Optimallaşdırma və optimal idarəetmə ixtisaslaşması | BDU |
| Magistratura | Kompüterli sistemlərin etibarlığı və dayanıqlığı | | payız | 45 | II | Azərbaycan | Kompüter mühəndisliyi | SDU |
| Magistratura | Logistika sistemlərində və təchizat | | payız | 45 | II | Azərbaycan | Logistika və nəqliyyat | AzTU |

| Təhsil səviyyəsi | Fənn | Fənnin məqsədi | Semestr | Tədris | Kurs | Tədris | İxtisas | ATM |
|---|---|---|---|---|---|---|---|---|
| | zəncirlərində simulyasiyalar | | | | | | | |
| Magistratura | Mediada informasiya siyasəti və informasiya təhlükəsizliyi | | payız | 60 | II | Azərbaycan | Jurnalistika | BDU |
| Magistratura | Metallurgiya sənayesindən alınan bərk tullantıların emalı texnologiyası | | payız | 60 | II | İngilis | Bərk tullantıların emalı texnologiyası | ADNSU |
| Magistratura | Nanofotonika və spintron nanosistemlər | | payız | 45 | II | Azərbaycan | Nanohissəciklər fizikası | BDU |
| Magistratura | Nanosistemlərin diaqnostikası və analizi üsulları | | payız | 45 | II | Azərbaycan | Nanohissəciklər fizikası | BDU |
| Magistratura | Optimallaşdırma məsələlərinin proqram təminatı | | payız | 45 | II | Azərbaycan | Optimallaşdırma və optimal idarəetmə ixtisaslaşması | BDU |
| Magistratura | Öyrənmə üçün qiymətləndirmə | Öyrənmə üçün qiymətləndirmə konsepsiyası və tətbiqi; əks-əlaqə, sorğu-sual, refleksiya, həmyaşıd qiymətləndirməsi, özünü qiymətləndirmə, alternativ qiymətləndirmələr: portfel qiymətləndirməsi, layihə əsaslı qiymətləndirmə, tədqiqat əsaslı qiymətləndirmə. | payız | 45 | II | Azərbaycan | Təhsildə qiymətləndirmə və monitorinq | ADPU |

| Təhsil səviyyəsi | Fənn | Fənnin məqsədi | Semestr | Tədris | Kurs | Tədris | İxtisas | ATM |
|---|---|---|---|---|---|---|---|---|
| Magistratura | Öyrətmə və öyrənmə | 21-ci əsrdə müəllimlik peşəsindən gözləntilər və müəllimlik peşəsinin çağırışları, təlimin planlaşdırılması, sinfin idarəedilməsində müxtəlif təlim üsullarının əsas xüsusiyyətləri, müəllimyönümlü və öyrənənyönümlü təlim yanaşmaları: təqdimetmə, birbaşa təlim, mühakiməetdici təlim, korporativ təlim, problem - əsaslı, sinifdə müzakirə təlim strategiyalarının xüsusiyyətləri və tətbiqi. | payız | 60 | II | Azərbaycan | Təhsildə qiymətləndirmə və monitorinq | ADPU |
| Magistratura | Paylanmış sistemlər | | payız | 45 | II | Azərbaycan | Kompüter mühəndisliyi | SDU |
| Magistratura | Proqram təminatının inkişafı | | payız | 45 | II | Azərbaycan | Kompüter elmləri | SDU |
| Magistratura | Psixologiya | | payız | 60 | II | İngilis | Bərk tullantıların emalı texnologiyası | ADNSU |
| Magistratura | Qeyri-üzvi maddə və materialların istehsalında əmələ gələn bərk tullantıların emalı texnologiyası | | payız | 60 | II | İngilis | Bərk tullantıların emalı texnologiyası | ADNSU |
| Magistratura | Sənaye inqilabının 4.0 əsasları | | payız | 45 | II | İngilis | Süni intellekt | ADNSU |
| Magistratura | Sənaye obyektlərin ekoloji layihələndirilməsi | | payız | 60 | II | İngilis | Bərk tullantıların emalı texnologiyası | ADNSU |
| Magistratura | Süni intellekt | | payız | 45 | II | Azərbaycan | Kompüter elmləri | SDU |

| Təhsil səviyyəsi | Fənn | Fənnin məqsədi | Semestr | Tədris | Kurs | Tədris | İxtisas | ATM |
|---|---|---|---|---|---|---|---|---|
| Magistratura | Tədqiqat üsulları | | payız | 30 | II | İngilis | Bərk tullantıların emalı texnologiyası | ADNSU |
| Magistratura | Təhsil layihələrinin hazırlanması və dəyərləndirilməsi | Təhsil üzrə problem və imkanların müəyyənləşdirilməsi; problemləri və imkanları hədəfləyən təhsil layihələrinin hazırlanması üsulları; həyata keçirilmiş təhsil layihələrinin dəyərləndirilməsi; layihə dəyərləndirməsi ilə bağlı əsas anlayışlar; dəyişiklik nəzəriyyəsi modeli və layihə (proqram) məntiq modeli; dəyərləndirmənin növləri (formativ və summativ); dəyərləndirmənin planlanması (məqsəd, suallar, meyarlar və s.); məlumatların toplanması, təhlili və interpretasiyası. | payız | 45 | II | Azərbaycan | Təhsildə qiymətləndirmə və monitorinq | ADPU |
| Magistratura | TM ölçmə və qiymətləndirmənin tətbiqi | Ənənəvi və alternativ ölçmə və qiymətləndirmə yanaşmalarının xüsusiyyətlərinin müəyyən edilməsi. Ənənəvi və alternativ ölçmə vasitələrinin müqayisəsi. Ənənəvi və alternativ ölçmə və qiymətləndirmə nəticələrinin birlikdə istifadəsi. Alternativ ölçmə və qiymətləndirmə yanaşmaları və həll təklifləri ilə bağlı | payız | 60 | II | Azərbaycan | Təhsildə qiymətləndirmə və monitorinq | ADPU |

| Təhsil səviyyəsi | Fənn | Fənnin məqsədi | Semestr | Tədris | Kurs | Tədris | İxtisas | ATM |
|---|---|---|---|---|---|---|---|---|
| | | məktəblərdə yaşanan problemlər. Alternativ ölçmə alətinin hazırlanması və tətbiqi nəticələrinin bildirilməsi. | | | | | | |